**Dəmirov Azərbaycana qarşı**
**Qərar – 30.06.2016**

Ərizəçi, Rüstəm Həsən oğlu Dəmirov 15 mart 2005-ci il tarixində işdən azad edilmişdir. Ərizəçinin işə bərpa və ödənilməmiş əmək haqqınını ödənilməsinə dair iddiası Səbail Rayon Məhkəməsi tərəfindən təmin edilmişdir. Bu qərar 25 noyabr 2005-ci il tarixində Apellyasiya Məhkəməsi, 12 aprel 2006-ciil tarixində isə Ali Məhkəmə tərəfindən qüvvədə saxlanılmışdır, lakin qərar Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən icra edilməmişdir.

Məhkəmə bu işdə aşağıdakı maddələrin pozuntusuna yol verildiyi qənaətinə gəlmişdir:

- Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin pozuntusu
- 1 saylı Protokolun 1-ci maddəsinin pozuntusu.

Məhkəmə ərizəçiyə maddi ziyana görə 16 000 avro, mənəvi ziyana görə 3 600 avro, məhkəmə xərcləri və məsrəflərinə görə isə 1 300 avro məbləğində kompensasiya təyin etmişdir.